# Dostluq əlaqələrinin prioritetləri



**Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişləndirilməsi xüsusi yer tutur. Bu baxımdan, ölkəmizin Gürcüstanla münasibətlərinin inkişafı hər zaman diqqət mərkəzindədir. Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri bu münasibətlərin hazırkı yüksək səviyyəsini əks etdirir.**

Aprelin 7-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri mövcud əlaqələrin davamlı xarakter daşıdığını göstərir. Bu, Azərbaycan və Gürcüstan arasındakı dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək. Həmçinin, bölgədə gedən proseslərin, təhlükəsizliklə bağlı məsələlərin birgə müzakirələri əməkdaşlığı yeni müstəviyə yüksəldəcək. Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili... mizin inkişafına əhəmiyyətli dərəcədə təkan verib. Ali və yüksək səviyyədə çoxsaylı qarşılıqlı səfərlər baş tutub, indiyədək 118-dən çox sənəd imzalanıb.

Humanitar sahədə əməkdaşlığı da xüsusi vurğulamaq lazımdır. Heydər Əliyev Fondu Gürcüstanda yaşayan soydaşlarımızın durumu ilə daim maraqlanır, burada təhsilin inkişafı, milli adət-ənənələrimizin qorunub saxlanmasında borçalılara böyük dəstək olur. Xüsusən, məktəblərin yenidən qurulmasında Heydər Əliyev Fondunun rolu böyükdür. Fond tərəfindən Gürcüstanda bir çox layihələr həyata keçirilib. Tbilisi şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yenidən qurulub və xiyaban yaradılıb. Marneuli rayonunun Algeti (Gorarxı) kənd inzibati dairəsində yerləşən 3 kəndə içməli su xətti çəkilib, kənddə XVI əsrə aid qədim məscid bərpa olunub, Bolnisi rayonunun Həsənxocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilib, Qardabani şəhərindəki 3 saylı, Tbilisi şəhərində M.F.Axundzadə adına 73 saylı Azərbaycan məktəblərinin, Dmanisi şəhərindəki 2 saylı məktəbin və bu rayonun Kirovisi kəndində məktəbin, Marneuli şəhərində 3 və 7 saylı məktəblərin binaları əsaslı təmir olunub, Qardabani rayonunun Qaracalar kəndində məktəb binası inşa edilib və Dmanisi şəhərində Heydər Əliyev adına Təhsil Mərkəzi yaradılıb.

Fond "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstanın azərbaycanlıların yaşadıqları regionlarında təhsilin, məktəb infrastrukturunun inkişafı üçün çox mühüm işlər görür. 2004-cü ildən etibarən soydaşlarımızı yeni dərs ili ərəfəsində hədiyyə etdiyi dərs ləvazimatı ilə sevindirir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər il Gürcüstanın Azərbaycan dilində olan məktəblərinə dərslik və dərs ləvazimatları göndərir. Gürcüstanda yaşayan azərbaycanlıların təhsillə bağlı problemlərinin aradan qaldırılması istiqamətində görülən işləri soydaşlarımız dərin minnətdarlıq hissi ilə qarşılayırlar.

kəzdə gənclərdən ibarət çox gözəl kollektiv formalaşıb və onlar qısa zaman ərzində maraqlı layihələr həyata keçiriblər.

Prezident İlham Əliyev 2015-ci il noyabrın 6-da Gürcüstana səfəri çərçivəsində burada yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşündə soydaşlarımızın iki ölkə arasında əlaqələrin inkişafındakı rolundan danışıb, xalqlarımızın əmin-amanlıq şəraitində yaşamasını əldə edilən uğur kimi dəyərləndirib: "Mən əminəm ki, sizin Gürcüstanda fəaliyyətiniz də Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayacaqdır. Çünki Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bizim əməkdaşlığımızı daha da möhkəmləndirir. Həm Gürcüstan, həm Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bizim ölkələrimizdə bütün xalqlar sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayır və bu, bizim böyük uğurumuzdur, böyük nailiyyətimizdir".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2023.- 11 aprel.- S.10.